# Cəlilabad: Aqrar sahə inkişafdadır

***Kəndli çöldə, tarlada tər axıtmasa, çörək ondan qaçaq düşər. Gərək gecə-gündüz çalışasan ki, ruzi ola, dolanacağın düzələ. Dədə-babadan torpaqla həsbi-halda olan, gözəl güzəran yaradan Cəlilabad rayonunun camaatı məhz çətin kəndli əməyi sayəsində, necə deyərlər, qəddini düzəldir, başını dik tuta bilir. Rayondakı 108 min 145 hektar kənd təsərrüfatı təyinatlı torpağın 97 min 300 hektarı əkinəyararlıdır. Vaxtilə öz hünəri hesabına ucalan 22 cəlilabadlı Sosialist Əməyi Qəhrəmanı adına layiq görülüb.***



Elə buradaca qeyd edim ki, Cəlilabad təkcə əkin-biçində hünərvər olan övladları ilə deyil, həm də bu sahənin böyük alimləri ilə öyünür. Bu yazını hazırlayan ərəfədə AMEA-nın Genetik Ehtiyatlar İnstitutunun direktoru Zeynal Əkpərovla tanış oldum. Rayonun Privolnı kəndinin yetirməsidir, 65 yaşı var. Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun (Gəncə) "Aqronomluq" fakültəsini fərqlənmə diplomu ilə bitirib. Sonra könlünü həmişəlik elmə verib. 1987-ci ildə Moldovada fiziologiya ixtisası üzrə "Soyadan yüksək və keyfiyyətli məhsul alınmasını təmin edən fotosintez fəaliyyəti" mövzusunda namizədlik dissertasiyası müdafiə edib. Bakıda uzun illər bitki genetik müxtəlifliyinin tədqiqi, toplanması, mühafizəsi, seleksiyada səmərəli istifadəsi və idarə olunmasının elmi-nəzəri əsaslarını işləyib hazırlayıb və 2010-cu ildə "Azərbaycanın bitki genetik ehtiyatlarının öyrənilməsi və seleksiyada istifadəsi" mövzusunda doktorluq dissertasiyası müdafiə edərək elmlər doktoru elmi dərəcəsi alıb. 140-dan çox elmi əsərin (66-sı xaricdə), 5 kitabın (2-si xaricdə), o cümlədən 3 monoqrafiyanın və digər əsərlərin müəllifi olan Zeynal Əkpərov AMEA-nın müxbir üzvüdür. Onun qardaşı Azad Əkpərov da alimdir, Kənd Təsərrüfatı Nazirliyinin Cəlilabad dayaq Məntəqəsinin direktoru vəzifəsində çalışır. Elmlər namizədi olan A.Əkpərov ötən ilin martında öz rayonlarında keçirilmiş mötəbər elmi-praktik seminarda "Üzümlüklərdə xəstəlik və zərərvericilərin təyin edilməsi, onlara qarşı mübarizə tədbirləri" mövzusunda maraqlı məruzə edib.

...Cəlilabadda, Ələt-Astara magistralının yaxınlığında üçmərtəbəli, yaraşıqlı bir bina diqqəti çəkir. Bura ötən il istifadəyə verilmiş Kənd Təsərrüfatı İdarəsinin inzibati binasıdır. Açılışında nazir Heydər Əsədov, icra başçısı Əziz Əzizov da iştirak ediblər. İdarənin rəisi Rahib Kərimov bizə bina haqqında məlumat verərək bildirdi ki, burada mütəxəssislər üçün yaxşı şərait yaradılıb. Rayon Baytarlıq İdarəsi, Dövlət Toxum Müfəttişliyinin Diaqnostik kabineti, Dövlət Baytarlıq və Fitosanitar Nəzarəti xidmətlərinin yerli qurumları, bitkiçilik və heyvandarlıq sektorları burada yerləşir. Binada müayinələrin aparılması üçün hər cür avadanlıqla təchiz olunmuş laboratoriya da fəaliyyət göstərir. ABŞ, Koreya və Türkiyə istehsalı olan texnikanın sayəsində heyvanlardakı bruselyoz, qızdırma kimi xəstəlikləri yerindəcə aşkarlamaq mümkündür.

– Bu tipli binalar dövlətimizin başçısı cənab İlham Əliyevin göstərişi ilə rayonlarda torpaqların təyinatı üzrə istifadəsinə nəzarəti gücləndirmək, o cümlədən subsidiyaların verilməsində şəffaflığı təmin etmək, mineral gübrələrin paylanması və satışını diqqətdə saxlamaq məqsədilə yaradılıb. Göründüyü kimi, aqrar sahəyə qayğı günbəgün artır. Prezident İlham Əliyevin rəhbərliyi altında kənd təsərrüfatının inkişaf istiqamətlərində həyata keçirilən tədbirlər, qəbul olunan qərar və sərəncamlar, hüquqi və fiziki şəxslərə verilən texnikaların ilkin dəyərinə 40 (qırx) faiz güzəşt tətbiq edilməsi, gübrələrin, həmçinin müasir, modern texnika və texnoloji avadanlığın gətirilərək fermerlərə güzəştli şərtlərlə verilməsi, aqrar sahədə həyata keçirilən institutsional islahatlar ölkədə ərzaq bolluğu və təhlükəsizliyi ilə bağlı nikbinlik yaradır. Ötən il rayonumuzda kənd təsərrüfatı bitkilərinin məhsuldarlığı yüksək olub. Bu üzdən də kəndlilərin işə həvəsi çoxalıb. Əkin sahələrinin münbitliyi yüksəkdir. İndi daha çox əkin işi həyata keçirilir.

Regional inkişaf üzrə Dövlət Proqramının icrası nəticəsində rayon iqtisadiyyatının əsasını təşkil edən aqrar bölmədə də irəliləyiş olmuşdur. Kənd təsərrüfatı məhsulları istehsalı 2003-cü illə müqayisədə 2,4 dəfə artmışdır. Keçən il rayon üzrə 248 milyon manatlıq kənd təsərrüfatı məhsulları istehsal edilmişdir ki, onun da 122 milyon manatı bitkiçiliyin, 126 min manatı isə heyvandarlığın payına düşür. İlk baxışda quru, statistik rəqəmlərin toplusu olan bu faktlar əslində torpağa axıdılan alın tərinin, ilboyu çəkilən gərgin zəhmətin fərəhli nəticələridir.

Ərzaq təhlükəsizliyinin təmin edilməsində strateji əhəmiyyəti olan taxılçılıq rayonun aqrar sektorunun aparıcı sahəsini təşkil edir, əhalinin çörəyə tələbatını ödəməklə yanaşı, heyvandarlığın yemlə təmin olunmasında da mühüm rol oynayır. Buna görə də torpağın şumlanmasından başlayaraq biçilən məhsulun daşınmasına qədər bütün proseslər ciddi nəzarətdədir. Rayona yeni texnikalar gətirilmiş, meliorasiya-irriqasiya işləri aparılmış və aqrotexniki tədbirlər optimal müddətdə başa çatdırılmışdır. Bütün bunların hesabına ötən il tarlalarda yüksək məhsuldarlığa nail olunmuş, zəmilər qısa müddət ərzində və heç bir itkiyə yol verilmədən biçilmişdir. Nəticədə, rayon üzrə 156,1 min ton buğda, 18,8 min ton arpa, 5,3 min ton vələmir istehsal edilmiş və rayon əhalisinin tələbatından da artıq məhsul tədarük olunmuşdur. Taxılçı fermerlərdən Xanlar Mirzəyev, Etibat Əliyev və başqaları onlarla hektarda bərəkətli məhsul əkib becərirlər.

Bundan başqa, Cəlilabadın kənd əməkçiləri 3300 ton noxud, 586 ton mərci, 103221 ton kartof, 1270 ton tərəvəz, 1067 ton qarğıdalı, 294 ton bostan məhsulları, 8520 ton üzüm, 348 ton şəkər çuğunduru, 810 ton çiyələk, 471 ton günəbaxan və 1409 ton meyvə istehsal ediblər. Cənab İlham Əliyevin tapşırığı əsasında yaradılan "Avanqard" MMC-nin iri toxumçuluq təsərrüfatının ilkin fəaliyyəti gözlənilən səmərəni verib, 1060 hektar taxıl sahəsinin hər hektardan 35 sentner məhsul götürülərək 3710 ton keyfiyyətli məhsul istehsal olunub. Eyni zamanda 14000 ton toxum fondu yaradılıb və 62889 hektar sahədə payızlıq əkin aparılıb. Həm əkin sahələrinin genişləndirilməsi, həm də zəmilərə aqrotexniki qaydada qulluq edilməsi bu il daha çox məhsul istehsal olunacağına təminat verir.

Ölkə başçısının tapşırığına müvafiq olaraq, keçən il rayonun Sabirabad, Təzəkənd, Günəşli Qarazəncir, Əliqasımlı və Alar kəndlərinin ərazisində 426 hektar pambıq əkilib, əlverişsiz hava şəraitinə baxmayaraq, 794 ton "ağ qızıl" toplanıb. Bu il isə 500 hektar pambıq və 1000 hektar çuğundur əkmək nəzərdə tutulub.

Cəlilabad aqrar sahə üzrə ölkə əhəmiyyətli tədbirlərin keçirildiyi ünvanlardan birinə çevrilir. Ötən il burada "Aqrolizinq" ASC-dən lizinq yolu ilə kənd təsərrüfatı texnikası əldə etmiş istifadəçilərə yerlərdə xidmət göstərilməsi məqsədilə güzəştlərin tətbiqi üzrə Xüsusi Komissiyanın növbəti səyyar iclası keçirilib. Tədbirdə Astara, Biləsuvar, Cəlilabad, Lənkəran, Lerik, Yardımlı, Masallı rayonları üzrə 220 istifadəçiyə lizinqə verilmiş, ümumilikdə, 4.525.028,1 manat məbləğində 382 ədəd müxtəlif kənd təsərrüfatı texnikasına yüz minlərlə ölçülən məbləğdə güzəşt tətbiq edilib. Mərasimdə məhsul istehsalçılarına kənd təsərrüfatı texnikalarının onların mülkiyyətinə verilməsinə dair hüquqi sənədlər təqdim edilib.

Bildiyimiz kimi, əkin sahələrinin genişləndirilməsi və məhsuldarlığın artırılması suvarma suyu ilə təminatdan bilavasitə asılıdır. Bu məqsədlə 636 kubmetr kanal lildən təmizlənib, mövcud hidrotexniki qurğular və su nasosları əsaslı təmir olunub. Həyata keçirilən tədbirlər nəticəsində 28,2 min hektar əkin sahəsi suvarılıb, kənd əməkçiləri su qıtlığı ilə üzləşməyiblər. Eyni zamanda bu il Cəlilabad şəhərində, Üçtəpə və Təzəkənd kəndlərində 3 subartezian quyusunun qazılması planlaşdırılır. Ötən il kənd təsərrüfatı məhsulları istehsalçılarına yanacaq almaq və buğda əkmək üçün 5 milyon 435,6 min manatlıq yardım edilib. Bundan başqa,"Aqrolizinq" ASC-nin Cəlilabad regional nümayəndəliyi tərəfindən kənd təsərrüfatı məhsulları istehsalçısına 70 faiz güzəştlə 2,9 min ton azot, 1,5 min ton amafos və 926 ton digər torpaqaltı gübrələr satılıb. Dövlətin kənd əməkçilərini dəstəkləməsi aqrar bölmənin inkişafına güclü təkan verib.

Cəlilabad artıq iri kartofçuluq rayonu sayılır. Burada ildə 100 min tondan çox kartof əldə edilir. Məhsulun bir qismi elə fermer təsərrüfatlarının yanındaca alıcılara təklif olunur. Fermerlər onlar üçün yaradılan münbit şəraitdən razıdırlar. Fəxrəddin Qarayev, Dəmət Rzayev, Yusif Tanrıverdiyev və başqaları zəhmətlərinin bada getməməsindən məmnundurlar. Dediklərinə görə, bol məhsul yetişdirib satmaqda heç bir problem yoxdur. At kotanı ilə hektarda şum 70 manata başa gəlirsə, texnika ilə torpağı 30 manata şumlatmaq olur.

Rayonda çiyələk əkininə də maraq böyükdür. Buna səbəb məhsula tələbatın çoxluğu, bazarda satış probleminin olmamasıdır. Hər il 300 hektardan çox sahədə çiyələk becərilir. Məhsul istehsalçıları əkin zamanı məhsuldarlığı ilə seçilən "Viktoriya" növünə daha çox üstünlük verirlər. Bitkiçiliyin bu növü ilə məşğul olan fermerlərin sözlərinə görə, bol məhsul götürmək üçün sahibkar orta hesabla 10 min manat vəsait sərf etməlidir. Göstərilən qulluqdan asılı olaraq hər hektar çiyələk sahəsindən 15-20 ton məhsul yığılır. Fermerlərdən Mirağa Hətəmov 15 hektarda, Mirismayıl Quliyev 18 hektarda çiyələk əkir. Bu işdə ən vacib şərtlərdən biri suvarma sisteminin düzgün qurulmasıdır. Suvarma damcı üsulu ilə aparılır. Bu üsul həm suya qənaət edir, həm də torpağı şoranlaşmaqdan qoruyur. Kənd sakinlərinin günəmuzd işlərə cəlb olunduğu çiyələk əkini sahələrində işlər ilboyu aparılır. Rayonda təsərrüfatın təkcə bu sahəsində 2 mindən artıq insan işlə təmin olunur. Bu isə kənd əhalisinin sosial rifah halının yüksəlməsinə xidmət edir.

Artıq ölkəmizdə baramaçılıq sahəsi bərpa olunur. Dövlət başçısının tapşırığına əsasən, Azərbaycana Çindən gətirilən 1,5 milyon ədəd tut tingi rayonlarda əkilib. Bir vaxtlar baramaçılıqla məşğul olan Cəlilabadın payına bölgüyə uyğun olaraq 10 minədək ting düşüb. İlkin olaraq Alar kəndi ərazisində, Təzəkənddə bir hektar sahədə əkin aparılıb. Bu tinglərin özəlliyi ondadır ki, yerli sortlardan fərqli olaraq yarpaqları daha enlidir. Yazda və qışda iki dəfə budanmaqla ildə altı dəfə suvarılır. Hər kiloqram baramanın qiymətinin 3 manatdan 8 manatadək qaldırılması fermerlərin böyük marağına səbəb olub. Bu, həm də yeni iş yerləri, sosial rifah deməkdir. Rayona ipəkqurdu toxumu da gətiriləcək baramaçılıqla məşğul olmaq istəyənlərə paylanacaq.



Cəlilabadda sarımsaq əkininə də maraq artıb. Məsələn,rayon sakini Allahverdi İsmayılov ötən ilin payızında 1,5 hektar sahədə sarımsaq əkib. O, əkin üçün toxumları İrandan gətirib. Dediyinə görə, bu sarımsaq xəstəliklərə qarşı gözəl vasitədir və yüksək məhsuldarlığa malikdir. Taxılla müqayisədə sarımsaq təsərrüfatına daha çox əmək sərf olunsa da, bu sahənin gəliri kifayət qədər yüksəkdir. Hazırda yerli bazarlarda sarımsağın 1 kiloqramının qiyməti 8-9 manat arasında dəyişir. Belədə hektardan illik gəlir 15-20 min manata çatır.

Kənd təsərrüfatının mühüm sahəsi olan heyvandarlıq da Cəlilabadda sürətlə inkişaf edir, naxırın cins tərkibinin yaxşılaşdırılması və epizootik xəstəliklərin qarşısının alınması istiqamətində görülən işlər məhsul istehsalına müsbət təsir göstərir. Bunun nəticəsində şəxsi təsərrüfatlarda qaramalın sayı 99375 başa, davarların sayı 122955 başa, quşların sayı 624572 başa çatdırılıb. Heyvandarlar 22,9 min ton ət, 82,3 min ton süd və 41,3 milyon ədəd yumurta istehsal ediblər. Həmçinin, lizinq yolu ilə rayona 74 baş cins malqara gətirilib, daha 25 baş heyvan alınması üçün müraciət olunub. 2262 baş inək süni mayalandırılıb. "Cəlilabad-broyler" ASC tərəfindən 5,7 min ton yüksək keyfiyyətli məhsulun istehsal olunması əhalinin quş ətinə tələbatının ödənilməsində mühüm rol oynayıb.

Hazırda Cəlilabadda ölkə başçısının tapşırığına əsasən örüş, biçənək və əkinəyararsız torpaqların əkin dövriyyəsinə daxil edilməsi, onların təyinatının və kateqoriyasının dəyişdirilməsi üçün tədbirlər görülür. İlkin hesablamalara görə bu tədbir hesabına 408 hektar torpaq sahəsində əlavə əkin aparılması reallaşacaq. Həmçinin meşə fonduna daxil olan 5455 hektar boş sahədə meşə salınması üçün müvafiq qurumlar qarşısında məsələ qaldırılıb.

***Əli NƏCƏFXANLI,***
***"Xalq qəzeti"nin bölgə müxbiri***